# ...VƏ ƏRƏSTUNUN İTİ

**Axşam saatlarında əl telefonuma gələn zəngin səsi məni televizorda maraqla baxdığım serialdan ayırdı. Telefonu həvəssiz qaldırdım:**

- Alo, eşidirəm.

- Salam, ay qağa.

Eynəksiz olduğumdan səs mənə tanış gəlsə də, telefonda yazılan adı oxuyub ayırd edə bilmədim. Amma zəng vuran adamın mənə "qağa" deyə müraciət etməsindən və eləcə də səsindəki şirinlikdən mənə doğma gəldi.

- Mürvət, sənsən? - soruşdum.

- Hə, mənəm. Nə var, nə yox, necəsən?..

- Yaxşıyam, çox sağ ol. Sən necəsən?

- Mən də yaxşıyam, Allaha şükür, dolanıram. Ay qağa, bilirsən niyə zəng vurmuşam?..

Mürvət mənim uşaqlıqdan bir məhəllədə böyüdüyümüz dostumdur. Gəncliyimiz də bir yerdə keçib deyə bir-birimizin xətrini həmişə çox istəmişik. Əvvəllər tez-tez görüşüb, birlikdə yeyib-içsək də, ya bizdə, ya da onlarda səs-küylə nərd oynasaq da, yaşlandıqca görüşlərimiz yavaş-yavaş səngiməyə başladı. Artıq bir məhəllədə də yaşamırıq, yaşadığımız məhəllə

***(Hekayə)***

plana düşüb söküldüyü gündən mən şəhərin bu başında, Mürvət isə o biri başında özümüzə ev almışıq. Amma bu heç də o demək deyildi ki, əlaqəni kəsmişik.

**Allah bu mobil telefon çıxaranın atasına heç rəhmət eləməsin, qardaşı-qardaşdan, dostu yoldaşdan, qohum-əqrabanı bir-birindən ayırdı, gediş-gəlişi kəsdi, insanların bir-birinə olan münasibətlərini soyutdu...**

Mürvətin səsi qulağımda cingildədi:

- Hə, nə deyirsən, gedəcəksən?

Fikirli olduğumdan onun bayaqdan nə danışdığını və sonda verdiyi sualın məğzini anlamadığımdan xəbər aldım:

- Hara gedəcəm?

Onsuz da səbirsiz olan Mürvət bomba kimi partladı:

- Ə, yekə kişisən, bəs mən bayaqdan keşişə söyürəm?

Mən onun könlünü almaq üçün gülə-gülə cavab verdim:

- Vallah, sənin kimə söydüyünü eşitmədim, amma mən bu mobil telefon çıxardan o köpəyoğlunu söyürəm. Deyirəm ki...

Mürvət sözümü kəsdi:

- Ə, kiri sən allah, mən boyda kişi bayaqdan danışıram, sənsə durub Mobili söyürsən. Onunla nə söhbətin var, özün bilərsən, çağır üzünə de. Bir də ki, Mobil kimdir axı?

Mən Mürvətin sözlərinə xeyli güləndən sonra, kimə və nəyə söydüyümü axır ki ona anlada bildim. Mürvət incik halda telefonun o bir başından dilləndi:

- Ə, küt özünsən, bildin?

- İncimə, sözünü de...

- Deyirəm ki, Ərəstunun oğlunun toyuna gedəndə məni də nəzərə al, mən də sənin maşınınla gedəcəm. Yəqin mənə bir yer tapılar da.



- Kim gedir ki? Bir sənsən, bir də Fazil. Yerə nə gəlib, deyəsən elə üçümüzdən başqa toya şəhərdən adam çağırmayıb.

Mürvət Fazilin adını eşidəndə dilxor olmuş kimi dilləndi:

- Baho... baş-beynimiz gedər də, sən canın imkan varsa, o şairi azdır.

**Bir yerə düşəndə Mürvətlə Fazilin söhbəti həmişə çəp gəlir. Səbəb də odur ki, alababat şeirlər yazan Fazil yeri gəldi-gəlmədi öz şeirlərini söyləməyi çox sevir və bununla da adamın başını ağrıdır. Məndən fərqli olaraq Mürvət Fazilin yazdığı şeirləri bəyənmir və həmişə də bu barədə mübahisələri düşür. Mürvətə baxanda Fazil xaraktercə mülayim adam olsa da, çox danışandır və bu da Mürvəti əsəbiləşdirir. Fazili də maşınımla rayona toya aparacağımı ona söz verdiyimdən başqa çıxış yolum yox idi. Mürvətin istəyindən asılı olmayaraq onun da bizimlə getməli olacağını bir təhər ona başa saldım. Sabah görüşəcəyimiz yeri və vaxtı Mürvətlə razılaşdırıb, telefonu söndürdüm.**

***(Ardı var)***

**Arif ƏRŞAD,**
**Yazıçı-publisist,**
**Prezident mükafatçısı**

**Azad Azərbaycan.- 2023- cü il.- 15 iyn.- S. 7.**